AYNURƏ QURBANOVA
Odlar Yurdu Universiteti
Bakı şəh. Koroğlu Rəhimov küç. 13,
aynuragurbanova84@gmail.com

# SİNTAKTİK KONSEPT BİLİYİN İFADƏ VAHİDİ KİMİ

**Xülasə**

Bu məqalədə sintaktik konsept hadisəsinin tədqiq tarixi nəzərdən keçirilir. Öz təbiətinə görə mürəkkəb hadisə olan sintaktik konsept dilin sintaktik sistemində xüsusi yer tutur. Məqalədə qeyd edilir ki, bir çox dilçilər bu sintaktik hadisəyə diqqət yetirmiş və onun linqvistik təbiətini açmağa cəhd etmişlər. Müasir koqnitivistikada konseptlərin dilin işarəvi təbiətə malik müxtəlif səviyyələrinin vahidləri ilə ifadə oluna bilməsi qeyd edilir. Məqalədə propozisiya, konseptual məzmun vahidi kimi, təfəkkür və ya konseptual səviyyənin vahidi kimi, yaddaşda inforasiyanın saxlanıldığı və çıxarıldığı vahid kimi nəzərdən keçirilir. Məqalədə "sintaktik konsept" anlayışı altında sintaktik vahidlərlə reprezentasiya olunan konsept başa düşülür. Sintaktik konsept cümlənin struktur modeli ilə obyektivləşən və tipik propozisiya kimi təmsil olunan dünya haqqında bilik vahidi kimi şərh edilir. Sadə konseptləri birləşdirən və ya konseptlər arasında müəyyən münasibətləri ifadə edən mürəkkəb – kompozitiv konseptlərin mövcudluğundan danışılır. Məqalədə sintaktik konseptlərin aşkar edilməsinin əsas üsulu kimi sadə cümlələrin struktur modellərinin tərkibinin və onların konkret söyləmlərdə reallaşmalarının təhlili göstərilir.Qeyd olunur ki, sintaktik konseptlərin araşdırılmasında induktiv-deduktiv yanaşmalardan istifadə oluna bilər. Məqalədə konseptin modelləşdirilməsinin onun elementləri arasındakı sabit əlaqələrin təsvirindən ibarət olduğu izah edilir. Sintaktik konseptlərin araşdırılmasında əsas metodlardan olan koqnitiv (konseptual) modelləşdirmədən bəhs olunur. Konseptual modelləşdirmə semantik nominativ statusa malik propozisiya kimi təsvir edilir.Məqalədə semantik predikat anlayışına toxunulur və onun propozisiyanın tərkibində elementar mənalı vahid olduğu izah edilir. Söyləmin sintaktik və kommunikativ fərqliliyi izah olunur.

***Açar sözlər***: ellipsis, cümlə, konsituasiya, kontekst, söyləm, konsept, cümlə modeli

Sintaktik konsept anlayışının məzmununun şərhi koqnitiv yanaşma (o cümlədən, psixolinqvistika, linqvokulturologiya) çərçivəsində aparılmış çoxsaylı tədqiqatlarda müəyyənləşdirlmiş konseptlərin xüsusiyyətləri nəzərə alınmaqla mümkündür. Qeyd edək ki, sintaktik konsept, hər şeydən əvvəl, təfəkkür səviyyəsinə mənsubdur və buna görə "sintaktik konsept" termini də şərti xarakterlidir (1, 23). "Sintaktik konsept" ifadəsi altında sintaktik vahidlərlə reprezentasiya olunan (obyektivləşən, verballaşan) "konsepti" başa düşmək lazımdır (2, s. 77, 82). Məlumdur ki, koqnitiv tədqiqatlarda "mental vahid", "ideal dünyanın obyekti" (3, 23), "yaddaşın, mental leksikonun əməliyyat vahidi", "strukturlaşmış biliyin kvantı" (4, 23-24; 5, 5), "insanın mental dünyasında mədəniyyətin əsas hüceyrəsi" (6, 40) kimi fərqli anlamlarda şərh edilən konsept birbaşa müşahidəyə gəlmir.

Tədqqatlara konseptlərin özləri deyil, onların dildə ifadə formaları məruz qalır və onlar da, öz növbəsində, konseptin müəyyən modelini yaradırlar. Məhz konseptin dildə reprezentasiya olunması faktı onun məzmununu modelləşdirməyə imkan verir. Sintaktik konseptin müşahidə olunan korrelyatı sintaktik işarə, cümlənin struktur modelidir və sintaktik konseptin spesifik əlamətlərini müəyyənləşdirmək üçün struktur modelin məzmun xüsusiyyətlərinin nəzərdən

keçirmək vacibdir. Konsept, məlum olduğu kimi, müxtəlif tip işarələrlə təmsil oluna bilər. Q.Q.Slışkinin də qeyd etdiyi kimi, "konseptin işarəvi ifadə potensialı nə qədər genişdirsə, onda onun tarixi də qədim və həmin dil kollektivi çərçivəsində dəyəri də yüksəkdir" (7, 18).

Dil vahidi kimi cümlənin məzmununun xüsusiyyəti onun dildənkənar bütöv situasiyanı əks etdirmək qabiliyyətindən ibarədir. Situasiya cümlədə aynavari və birbaşa deyil, insan şüurunda təfəkkür vasitəsilə əks olunur ki, bunu da eyni bir real situasiyanın müxtəlif sintaktik strukturlara uyğun gəlməsi ilə izah etmək mümkündür. İnsan təfəkküründə işlənib hazırlanmış situasiya və ya dünya fraqmenti haqqında müəyyən təsəvvür bu və ya digər strukturlu cümlə vasitəsilə reprezentasiya olunan fikri məzmunu təşkil edir. Buna görə də sintaktik konseptlər, Z.D.Popovanın da qeyd etdiyi kimi, "insanlar tərəfindən düşünülmüş və sintaktik strukturlarla verballaşmış situasiya obrazlarını təmsil edirlər" (8, 59).

Qavranılan situasiyanın obrazı, onunla bağlı fikri, konseptual məzmunu ilkin olaraq diskret, amorfdur. Kateqoriyalaşma və konseptləşmə mexanizminin hərəkəti nəticəsində situasiya haqqında təsəvvür nizamlanmış, üzvlənmiş struktura – propozisiya formasına çevrilir və bu formada dil vasitələri ilə ifadə oluna bilir.

Adlandırılmasından asılı olmayaraq, cümlənin məzmun strukturu ənənəvi olaraq riyazi məntiq mövqeyindən predikat və müəyyən arqumentlər sayından ibarət propozisiya kimi baxılmışdır ( S.D.Katsnelson (9); Y.V.Paduçeva (10); İ.P,Susov (11); C.Layons (12). Bu zaman feil mərkəzli cümlə konsepsiyası çərçivəsində predikat bu və ya digər arqumentləri birləşdirərək, cümlənin işarə etdiyi situasiyanın strukturunu implisitləşdirməyə qabil propozisiyanın təyinedici elementi, cümlənin struktur-semantik mərkəzi kimi qəbul edilir. Ekstralinqvistik (denotativ) situasiyanın iştirakçıları və onları əlaqələndirən münasibətlərlə (və sintaktik strukturun elementlərilə - aktantlarla ifadə olunan) əlaqələndirilən predikat və arqumentlər semantik (siqnifikativ) səviyyənin elementləri kimi nəzərdən keçirilir. Başqa sözlə, V.B.Kaseviçin də qeyd etdiyi kimi, propozisiya "freymin, qeyri-dil törəməsinin dildəki analoqu" kimi şərh edilir (13, 83). Cümlənin strukturu müəyyən dərəcədə kommunikasiyanın bütövlüyündən və həmin cümlənin kommunikasiyadakı yerindən asılıdır. Onun fikrincə, "törəmə prosesinin ilkin strukturu məntiqi münasibətlər ruhunda anlaşılan propozisiyadır" (14, 134). Propozisiya səviyyəsində nitqin yaranması ideyasına tərəfdar çıxan S.D.Kasnelson isə hesab edirdi ki, propozisiya ilə ifadə olunan məlumat nitqin yaranmasının ilkin fazasını təşkil edir. Nitqin yaranması prosesini daxili və xarici nitq kimi iki mərhələyə bölən müəllifin fikrincə, "ilkin mərhələdə məlumatın məzmunu formalaşır, ikinci mərhələdə isə bu məzmun dinləyənin dil və predmet biliklərinə yönəlikli əlavə informasiya qazanması faktını da qeyd edir" (14, 135).

Qeyd edək ki, situasiya obrazında müəyyən münasibətlərlə əlaqələnən obyekt-iştirakçılar ayırd edilir. Situasiyada iştirak edən obyektlər propozisiyanın predmet tərkiblərində əks olunur. Fərdi situasiyaların konkret xarakteristikasından abstraktlaşması, dünya haqqında biliklərin toplanması prosesində onların təkrarlanan xüsusiyyətlərinin nəzərə alınması, situasiyaların dəfələrlə konseptləşməsi insan şüurunda ümumiləşmiş struktura və onun dildə ifadəsi üçün cümlənin müəyyən sintaktik modelini formalaşdıran tipik propozisiyaya uyğun tipik situasiyanın fərqləndirilməsinə gətirib çıxarır.Fiziki təcrübənin tipik situasiyaları ümumiləşmiş propozisiyalar formasında əks olunur və cümlənin struktur tiplərində kodlaşır. Beləliklə, sintaktik konsept "cümlənin konkret struktur sxemi ilə qeydə alınmış tipik propozisiya kimi" müəyyənləşdirilir (15, 4). Qeyd edək ki, təhlil olunan mənbələrdən məlum olur ki, sintaktik konsept anlayışı faktiki olaraq propozisiya anlayışına bərabər tutulur (2). Propozisiya termininin çoxmənalığı ilə bağlı qeyd etmək lazımdır ki, propozisiya gerçəklik situasiyasının iştirakçılarının qarşılıqlı əlaqəliyinin əks etdirən və sonrakı verballaşmaya aid situasiyanın mental korrelyatı, fikri strukturu kimi başa düşülür (16; 17, 226-227).

Konseptin çoxmeyarlı təbiətə malik olması və onun məzmunun dil vahidləri ilə ifadə olunmuş məzmundan daha geniş olduğunu nəzərə alsaq, propozisiyanı konseptual məzmunun sonrakı verballaşma forması və ya konseptin verballaşan hissəsi hesab etmək olar. Bu baxımdan L.A.Fursun sintaktik konseptə verdiyi şərh diqqəti cəlb edir. Müəllifə görə, sintaktik konsept "dünya fraqmetləri və dil haqqında bilikləri strukturlaşmış şəkildə mərkəzləşdirən və bu biliklərin sintaktik vasitələrlə reprezentasiyasına istiqamətlənmiş məfhumi substratdır (anlamın maksimum abstraktlaşmış komponentləridir)" (18, 94; 19, 31-32).

Propozisiya mürəkkəb strukturu – qarşılıqlı əlaqəli anlamların kombinasiyasını, yəni nisbətən sadə konseptlərin birliyini təmsil edir. Bu əsasda İ.P.Susov konseptlərin propozisional formada olduğunu qəbul etməyi məqsədəuyğun hesab edir (20).

Məqalədə biz sadə konseptləri birləşdirən və ya konseptlər arasında müəyyən münasibətləri ifadə edən mürəkkəb – kompozitiv konseptlərin mövcudluğunu qəbul edirik. Konseptin belə növü kimi öz strukturuna baza konseptləri – subyekt, obyekt, hərəkət, xüsusiyyət və s. konseptləri daxil edən sintaktik konseptdir. Məsələn, ingilis dilində "object location" sintaktik konsepti aşağıdakı elementar anlamlardan - "someone / something (object)", "is" (link), "somewhere" (location) təşkil olunur. Kompozitivlik xüsusiyyəti, bir neçə konsepti bir münasibətdə birləşdirmək qabiliyyəti dil daşıyıcısının konsept sferi üçün sintaktik konseptin vacibliyi ilə şərtlənir (2, 81). Q.A.Voloxina və Z.D.Popovanın da qeyd etdikləri kimi, "sintaktik konseptlərsiz dilin semantik məkanı mövcud ola bilməz, belə ki, konseptlər dəstinin bilikləri onlar arasındakı münasibətlərin növünü bilmədən hərəkət və həyat məkanından məhrum olur" (15, 8). İnsan ətraf dünya hadisələrini əsas konseptləri seçmək və müəyyən münasibətlərdə birləşdirmək hesabına dərk edir. Konseptlər arasındakı mümkün münasibətlər tipi arasındakı biliklər propozisional formaya malik – sintaktik konseptlər kimi xüsusi vahidlərdə saxlanılır.

Beləliklə, sintaktik konsept cümlənin struktur modeli ilə obyektivləşən və tipik propozisiya kimi təmsil olunan dünya haqqında bilik vahidi kimi şərh edilə bilər.

Konseptin spesifikasından çıxış edərək, təxmin etmək olar ki, konseptin araşdırılması onun linqvistik reprezentantları- dil işarələri ilə bağlıdır. Mövcud mənbələrin icmalı göstərir ki, sintaktik konseptlərin aşkar edilməsinin əsas üsulu sadə cümlələrin struktur modellərinin tərkibinin və onların konkret söyləmlərdə reallaşmalarını təhlil etməkdir. Məsələn, Q.A.Voloxina və Z.D.Popova sintaktik konseptləri müəyyənləşdirərkən eyni konseptləri obyektivləşdirən cümlələrin struktur modellərinin (sxemlərinin) eyniyyətindən çıxış etməyi tövsiyə edirlər. Sadə cümlələr vasitəsilə reprezentasiya olunan konseptlərin araşdırılmasında "formadan mənaya" doğru istiqamət özünə yer alır (15). Müəlliflər öz tədqiqatlarında leksik tərkibinə, "mövqe sxeminə" görə fərqlənən, lakin eyni bir struktur sxem üzrə qurulmuş, yəni subyekt və fikir predikatını işarələyən sözformalarının eyni bir ardıcıllığını özündə əks etdirən söyləmləri seçirlər. Bu zaman struktur sxemlərin seçilməsində formal-qrammatik meyarlar deyil, sxemin informativ yetərliliyi, onun danışanın fərz etdiyi predikativ münasibətləri verməyə qabil olması və ya, başqa sözlə, təsvir olunan hadisənin iştirakçıları arasında münasibətlərin tipiəsas göturülür. L.A.Furs isə sintaksisin konseptual məkanının araşdırılmasında fərqli prosedur tətbiq edir (21). Sintaktik reprezentasiya olunan konsept mənanın prototipik subyekt-predikat-obyekt münasibətlərinin xüsusiyyətlərindən ayırd ediən ümumiləşdirilmiş komponentlərinin üzvlənməsi əsasında müəyyənləşdirilir. L.A.Furs gerçəklik situasiyasının prototipik əlamətlərindən hasil edilən sintaktik konseptlərin əsas xarakteristikalarını cümlənin semantik və sintaktik səviyyələrinin proyeksiyasında formalaşdırır. Bu səciyyələr arasında "işin icraçısına yönəliklik", "təsir obyektinə yönəliklik", "təsir alətinə yönəliklik", "təsirin nəticələrinə yönəliklik" və s. xüsusi qeyd edilə bilər. Əlavə edək ki, bu konseptual səciyyələrin kombinasiyası sintaktik cəhətdən reprezentasiya olunan konseptin tipini müəyyən edir. Məsələn, L.A.Fursun fikrincə, "işin icraçısına yönəliklik", "hərəkətə yönəliklik" "hərəkət" konseptini aktuallaşdırır (21, 16). Sintaktik konseptlərin ayırd edilməsinin

özü hər bir dil daşıyıcısının şüurunda "konseptlərin" arxasında cümlələrin müəyyən struktur tiplərinin "möhkəmlənməsi" ilə şərtlənmişdir. Məhz bu səbəbdən də istənilən sintaktik konseptin araşdırılmasında cümlənin strukturundan çıxış etmək zəruridir. Beləliklə, sintaktik konseptlərin araşdırılmasında kompleks, həm formadan fikrə, sintaktik strukturlardan onların konseptual səciyyəsinə, həm də fikirdən formaya, məna elementlərindən onların obyektivləşmə vasitələrinə istiqaməti tələb edən induktiv-deduktiv yanaşmalardan istifadə oluna bilər.

Sintaktik konsepti təşkil edən, müşahidə edilməyən alt strukturlar (məna) onların müşahidə olunan korrelyatları – cümlənin struktur modelinin komponentləri ilə müəyyən edilir. Bir halda ki, sintaktik konseptlərin araşdırılması birbaşa müşahidəyə gəlməyən fenomenlərin aşkar edilməsilə bağlıdır, onda belə araşdırmalarda əsas metod koqnitiv (konseptual) modelləşdirmə hesab edilə bilər (4; 18). Konseptin modelləşdirilməsi onun strukturunun eksplikasiyasını – onun elementləri arasındakı sabit əlaqələrin təsvirini, konseptin strukturunu şərtləndirən faktları nəzərdə tutur. Sintaktik konseptin elementləri dildənkənar situasiyanın tərkiblərini əks etdirir və cümlənin struktur modeli ilə ifadə olunurlar. Propozisiyanın tərkibinə situasiyanın mütləq iştirakçıları – həmin ekstralinqvistik situasiyanın mövcudluğu üçün minumum zəruri olan iştirakçılar daxil olur. Situasiyanın fakültətiv iştirakçıları, yəni mövcudluqları situasiyanı müəyyən tipə aid etmədə vacib olmayan iştirakçılar propozisiyanın tipik elementlərində öz əksini tapmırlar. Məsələn, istənilən fiziki təsir situasiyasında müəyəyn subyekt (işin icraçısı, agens) və təsirə məruz qalan predmet iştirak edir. Belə situasiyada instrument və ya vasitə iştirak etməyə bilər. Cümlənin semantik strukturu mürəkkəb və çoxaspektli törəmədir. Cümlənin semantik strukturunun kompleks təhlilində söyləmin məna planının kommunikativ komponenti tədqiq edilir. Qeyd edək ki, gerçəklik haqqında eyni bir informasiya müxtəlif cümlələrdə (söyləmlərdə) fərqli şəkildə verilə bilər. Başqa sözlə, bu və ya digər real situasiya haqqında informasiya müxtəlif cümlə-söyləmdə verilə bilər. Cümlə semantikası təkcə ekstralinqvistik gerçəkliyi deyil, həm də onun insan şüurunda konseptual strukturlar kimi inikasını, ünsiyyət iştirakçılarının kommunikativ intensiyasını (niyyətini), dilin özünün sistem-struktur xüsusiyyətlərini və s. özündə birləşdirir. Cümlənin semantik cəhətdən öyrənilməsi sintaqmatikada birləşmələrin abstrakt təsviri üsulları, sözlərin birləşməsinin əsasını təşkil edən mənalı vahidlərin qruplaşdırılmasılması məsələlərini aktivləşdirmişdir. Müasir dilçilikdə cümlənin semantikasının modelləşdirilməsinə dair nəzəri fikirləri ontolojisentrik, konseptosentrik, sintaktiksentrik və antroposentrik və s. yanaşmalarda qruplaşdırmaq olar.

Sintaqmatikada (cümlə daxilində) sözlərin məna cəhətdən birləşmə modellərinin, abstrakt modellərin tapılması dilçiləri müxtəlif elm sahələrinin - məntiq, riyaziyyat və s. təcrübəsindən yararlanmağa sövq etmişdir. Məsələn, məntiqdə predikat dedikdə, hər hansı bir xüsusiyyət və ya münasibət başa düşülür. Bundan çıxış edərək cümlənin əsasını təşkil edən semantik münasibətlər müəyyən situasiyaları təsvir etdikləri üçün nominativ statusa malik propozisiya kimi təsvir edilə bilər. Semantik konstruksiyanın nüvəsini semantik aktantları əhatə edən semantik predikat təşkil edir. Ünsiyyət iştirakçılarının münasibət və xüsusiyyətlərini işarələyən semantik predikat propozisiyanın tərkibində elementar mənalı vahiddir.

Konseptin strukturunun elementləri konseptlərin paradiqmatik qarşılaşmasında aydınlaşırlar. Cümlələrin struktur modellərilə obyektivləşən konseptləri sistem şəklində, qarşılaşmalarda nəzərdən keçirmək lazımdır. Paradiqmatikada struktur modellərin qarşılaşdırılması prosesində onların reprezentasiya etdikləri tipik propozisiyalarda konseptlərin təsnifi üçün əsası təşkil edən ümumi və differensial komponentlər aşkar edilir. Məsələn, /He pulled the cap down on his head again//, /We galloped the letter to the headquarters// və /They stepped inside the house// söyləmlərini müqayisə edərkən struktur modellərdə ümumi mövqelər (mübtəda, xəbər) və reprezentasiya olunan tipik propozisiyaların ümumi elementləri ("someone / something", "moves", "somewhere") müəyyən edilir. Hər iki model məkanda yerdəyişmə

situasiyasının işarələridir. Lakin birinci modeldə obyektin müəyyən subyektlə yerdəyişməsi, ikinci modeldə isə predmetin məkanda müstəqil yerdəyişməsi təsvir edilmişdir.

Tipik propozisiyaların reallaşmasında onun elementləri daha konkret məzmun kəsb edirlər. Məsələn, "someone" / "something" mənaları hərəkətin aktiv icraçısı haqqında informasiya verirlər. 1) /*She* had destroyed both their cards//; /*Ivan* only executed forty people at Pskov//; /*Flash floods* killed two people//.

Daxili proqramlaşdırma mərhələsində konkret söyləmin qurulmasında onun məzmunun əsas məna vahidlərinin müəyyənləşdirilməsi əməliyyatı, yəni söyləmin propozisiyasının təyin edilməsi yerinə yetirilir. Söyləmin propozisiyasının müəyyənləşdirilməsində danışan onun üçün aktual, onun kommunikativ məqsədinə uyğun məna vahidlərini seçir.

Danışan üçün daha vacib iştirakçılar subyekt, hərəkət obyekti rolu qazanırlar. Propozisiyanın və struktur modelin mütləq elementləri fərqli əhəmiyyətlilik dərəcəsi ilə səciyyələnirlər. Belə element kimi, Ç.Filmorun fikrincə, agens çıxış edir (23).

/*He ordered her out of the room//* tipli söyləmdə situasiyanın konseptləşməsində hərəkətə keçmiş daha bir mexanizm, J.Fokonye və M.Ternerin də qeyd etdiyi kimi, "konseptual inteqrasiya mexanizmi" nümayiş etdirilir (24).

Diskursiv təsvirdə situasiyanı adlandıran cümlənin əsas informasiya məzmununu özündə ehtiva edən propozisiya semantik strukturun şərhində vacib mərhələdir. Dilxarici gerçəklik situasiyası semantik konstruksiya və ya propozisiya ilə əks olunur (25). Propozisiya semantik cəhətdən mənalı elementlərdən və semantik cəhətdən mühüm əlaqələrdən ibarətdir. Elementlərin semantikasını və əlaqələrin semantikasını ən ümumi formada üç predikativ formulun - P(x), P(x, y), P(x, y, z) köməyilə vermək mümkündür. Bu formullar göstərir ki, dilin semantik komponenti predikat elementləri (P) və onlarla assosiativ münasibətdə olan arqumentləri (x, y, z) ehtiva edir. Arqumentlərlə sabit münasibətdə olan hər bir predikat iki və ya üç arqumentlə, daha dəqiqi, situasiyanın iştirakçıları ilə potensial şəkildə əlaqəlidir. Predikat situasiyanı adlandırır və iştirakçıların sayını implisit şəkildə ifadə edir. Məsələn, ingilis dilində predikat (P)" give" ilə işarələnən "vermək" situasiyasını kommunikativ aktda üç iştirakçını implisit şəkildə bildirir. Bunu "kimsə kiməsə nəyi isə verir" və ya predikat formulunun köməyilə P (x, y, z.) ifadə etmək də olar.

Linqvistik anlamda predikativ ifadə "semantik struktur", "semantik təsəvvür", "alt struktur", "dərin struktur" terminləri ilə adlandırılır. Cümlənin yaranması sintaktik deyil, semantik strukturdan başlamalıdır. Bu məqsədlə baza komponenti semantik təsəvvürlərin yaranması qaydalarını, semantik təsəvvürləri sintaktik təsəvvürlərə çevirən transformasiya qaydaları məcmusunu əhatə edir. Semantik struktur nəzəriyyəsində (Ç.Filmor bunu cümlənin qrammatik strukturu adlandırır) birbaşa tərkiblər qrammatikasından deyil, predikat-arqument prinsipindən istifadə edilir. Qrammatik strukturu S → M + P formulu ilə təqdim etmək mümkündür: burada S – cümləni, M– modal göstəricini, P – propozisiyanı ifadə edir. Sonuncu, yəni propozisiya P → V + C1 + C2 formulu ilə genişləndirilə bilər ki, burada V - feil, C1 + C2 arqumentin feilə (predikata) semantik münasibəti kimi başa düşülən dərin halları (alt qatı) ifadə edir.

Alt qat halları subyekt (mübtəda) və obyekt (tamamlıq) kimi sintaktik münasibətlərin semantik şərhi nəticəsində yaranmışdır. Eyni bir sintaktik mövqedə (pozisiyada) müxtəlif dərin halların çıxış edə bilməsi və ya əksinə, eyni bir dərin halın cümlənin müxtəlif üzvlərinə uyğun gələ bilməsinin mümkünlüyü bunun bariz sübutudur. Məsələn:

1) /The door opened// (Qapı açıqdır);
2) /John opened the door// (Con qapını açdı);
3) /The wind opened the door// (Külək qapını açdı);
4) /John opened the door with a chisel// (Con qapını açdı).

Birinci və ikinci cümlələrdə "the door" sintaktik strukturda müxtəlif mövqelərdə çıxış edir (mübtəda və tamamlıq) və semantik-sintaktik strukturda da bu eyni bir halı (obyektiv – təsirə məruz qalan cansız obyekt – Ç.Filmor (26)) təmsil edir. Üçüncü və dördüncü cümlələrdə isə eyni bir hal instrumentalis - (instrument - Ç.Filmor) mübtəda və tamamlıq (the wind, with a chisel) təmsil olunmuşdur.

Məlumdur ki, real gerçəklik situasiyalar çoxluğundan yaranır. İnsan şüuru konkret situasiyaları özündə əks etdirir, onları ümumiləşdirir və müəyyən siniflərə ayırır. İnsan beynində abstrakt situasiyaya və ya onun sinfinə alt qatda dil törəməsi uyğunlaşdırılır. Onun törəmə prosesi üç mərhələni əhatə edir: relyasiya (strukturu, izomorf abstrakt situasiyanı yaradır), predikasiya (relyasiya strukturunun üzərinə subyekt-predikat münasibəti yükləyir) və nəhayət, modifikasiya (burada predikasiya strukturunun modal, temporal, personal dəyişmələri baş verir). Məsələn, ingilis dilində /The girl laughed// (Qız güldü) cümləsi relyasiyaya (yəni denotata) malikdir: "agens + hərəkət). Lakin o, ingilis dilində həmin relyasiya (münasibət) strukturuna malik "the laughing girl" (gülən qız) söz birləşməsindən hərəkət bildirən predikatın xəbər mövqeyində çıxış etməsi və feilin şəxsli formasında ifadə olunması, yəni semantikanın predikasiya aspekti ilə fərqlənir.

Beləliklə, dil hadisələrinin öyrənilməsinə yeni yanaşma özünü cümlənin semantik reprezentasiyası və onun üst-sintaktik reallaşması arasındakı qarşılıqlı əlaqədə, üst və alt (dərin) qatların fərqləndirilməsində, söyləmin sintaktik və kommunikativ fərqliliyində göstərir.

Ədəbiyyat

1. Jackendoff R. Languages of the Mind. Essays on Mental Representation / R. Jackendoff. – Cambridge (MA): The MIT Press, 1996, 1703 p.
2. Попова З.Д. Очерки по когнитивной лингвистике. Воронеж: 2001, 192 с.
3. Вежбицкая А. Лексикография и концептуальный анализ. М.: Анн Арбор, 1985, 576 с.
4. Болдырев Н.Н. Когнитивная семантика: курс лекций по английской филологии. Изд. 2-е стереотип. Тамбов: Изд-во Тамб. ун-та, 2001, 123 с.
5. Попова З.Д. Понятие «концепт» в лингвистических исследованиях. – Воронеж: 1999, 30 с
6. Степанов Ю.С. Константы. Словарь русской культуры. М.: Школа «Языки русской культуры», 1997, 824 с.
7. Слышкин Г.Г. От текста к символу. Лингвокультурные концепты прецедентных текстов. М.: Academia, 2000, 128 с.
8. Попова З.Д. Способы вербализации концептов как проблема когнитивной лингвистики // Respectus Philologicus. – 2009, 16 (21), с. 56-61.
9. Кацнельсон С.Д. Типология языка и речевое мышление. Л.:Наука,1972, 216с.
10. Падучева Е.В. О семантике синтаксиса. Материалы к трансформационной грамматике русского языка. М.: Наука 1974, 292 с.
11. Сусов И.П. Семантическая структура предложения. Тула: Изд-во Тульского гос. ун-та, 1973, 141 с.
12. Lyons J. Linguistic Semantics: an Introduction. Cambridge: Cambridge University Press, 1995, 376 p.
13. Касевич В.Б. Семантика. Синтаксис. Морфология. М.: Наука, 1988, 309 с.
14. Кацнельсон С.Д. Общее и типологическое языкознание /Отв. ред. А.В.Десницкая. Л.: Наука, 1986, 297 с.

15. Волохина Г.А. Синтаксические концепты русского простого предложения / Г.А. Волохина, З.Д. Попова. – Воронеж, 1999, 196 с.
16. Попова З.Д. Очерки по когнитивной лингвистике. Воронеж, 2001, 192 с.
17. Манаенко Г.Н. Пропозиция и осложненное предложение // III Международные Бодуэновские чтения (Казань, 23-25 мая 2006 г.): труды и материалы: в 2 т. – Казань: Изд-во Казан. ун-та, 2006, Т.2, с. 68-71.
18. Чейф У. Значение и структура языка. М.: 1975, 432 с.
19. Фурс Л.А. Синтаксически репрезентируемые концепты. Дис. … докт. филол. наук. – Тамбов, 2004, 370 с.
20. Фурс Л.А. Особенности когнитивной категории в синтаксисе // Когнитивные категории в синтаксисе. / отв. ред. Л.М. Ковалева. Иркутск: ИГЛУ, 2009, с. 21-50.
21. Сусов И.П. Введение в теоретическое языкознание: электронный учебник. Модифицировано в ноябре 2006 г. [Электронный ресурс] / И.П. Сусов. – Режим доступа: http://homepages.tversu.ru/ ~ips/LingFak1.htm.
22. Фурс Л.А. Синтаксически репрезентируемые концепты: автореф. дис. … докт. филол. наук. Тамбов, 2004, 37 с.
23. Fillmore Ch. The Case for Case Reopened / Ch. Fillmore // Syntax and Semantics. – Vol. 8 / ed. by P. Cole and J.M. Sadock. – N.Y.; San Francisco; London, 1977, p. 59-86.
24. Fauconnier, G. Conceptual Integration and Formal Expression / G. Fauconnier, M. Turner // Journal of Metaphor and Symbolic Activity, 1995, 10 (3), p. 183-204.
25. Сусов И.П. Введение в языковедение. М.: АСТ: Восток-Запад, 2007, 379 с.
26. Филлмор Ч. Дело о падеже // Новое в зарубежной лингвистике. -Вып. X. Лингвистическая семантика. М.: Прогресс, 1981, с. 369-495

А.Н.Курбанова

Синтаксический концепт как единица выражения знания

Резюме

В данной статье автором рассматривается история изучения явления синтаксического концепта. Синтаксический концепт, как сложное по своей природе явление, занимает особое место в синтаксической системе языка. В статье подчеркивается, что многие лингвисты на это лингвистичекое явление обратили внимание и попытались определить его лингвистическую природу. В современной когнитивистике считается, что концепты могут быть выражены разноуровневыми языковыми средствами, обладающими знаковой природой. В статье пропозиция, как единица концептуального содержания, рассматривается как единица мыслительного, концептуального уровня, то есть единица, в которой хранится и извлекается из памяти информация. В статье под понятием «синтаксический концепт» понимается концепт, репрезентируемый (вербализуемый) синтаксическими единицами. Синтаксический концепт истолковывается как единица выражения знаний, о мире объективированная структурной моделью предложения и представленная как типичная пропозиция. Говорится о существовании композитивных концептов - сложных концептов соединяющих простые концепты или же выражающие определенные взаимоотношения между концептами. В статье главным способом выявления синтактических концептов считается разбор состава структурных моделей простого предложения и их реализации в конкретных высказываниях. Так же отмечается что, индуктивно-дедуктивные подходы могут быть использованы в исследовании синтактических концептов. В статье объясняется, что моделирование концепта это изоброжение стабильных взаимоо-

тношений между его элементами. Говорится о когнитивном моделировании, которое является одним из главных методов изучения синтактического концепта. Концептуальное моделирование изброжается как пропозиция имеюшая семантический - номинативный статус. В статье затрагивается тема семантического предиката, который описывается как элементарная смысловая единица в составе пропозиции. Обьясняется синтактическое и коммуникативное отличие высказывания.

**Ключевые слова:** эллипсис, предложение, конситуация, контекст, концепт, высказывание, модель предложения

Gurbanova A.N.

**Syntactic Concept as a unit of knowledge expression**

Summary

In this article the author considers the phenomenon of Syntactic concept and the history of its research.Syntactic Concept is of a complex nature and occupies a very special place in the syntactical system of a language.The article stresses that many linguists highlighted this linguistic phenomenon and have sought to identify its linguistic nature. According to the modern cognitive science concepts can be expressed by different level linguistic means having significant nature .In this article proposition is regarded as a unit of conceptual meaning, as a unit of thinking or reflective level which means a unit of collecting and extracting information from memory.The term “syntactic concept” constitutes the concept represented (verbalised) by syntactic units. Syntactic Concept is interpreted as a unit of knowledge about the world objectified by the structural model of the sentence and introduced as a typical proposition. It is spoken about composite concepts –complex concepts connecting simple ones or expressing certain relationship among concepts. In the article the analysis of the parts of structural models of the simple sentences and their implementation in certain phrases is mentioned as the primary method of syntactic concept identification.It is mentioned that inductive and deductive methods can be used for the research of the syntactic concept. The article explains that the modeling of the concept is the representation of the stable relationship between its elements. Cognitive modeling is also mentioned as one of the key tools of the researches about syntactic concept. Conceptual modeling is portrayed as the proposition with semantic and nominative status.The article touches on a subject of Semantic predicate which is described as a basic unit of knowledge within proposition. Syntactic and communicative distinctions of the phrase are also explained here.

**Key words:** ellipsis, sentence, consituation, context, utterance, consept, sentence model

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 01.08..2019
Filologiya elmləri doktoru, professor Fəxrəddin Veysəlli tərəfindən çapa tövsiyə olunmuşdur.